# TƏLİM, TƏDRİS VƏ SERTİFİKATLAŞDIRMA İDARƏSİNİN BÖYÜK METODİST VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1.Təhsillə bağlı qanunvericilik aktları;
2. Əmək qanunvericiliyi;
3. Respublikada metodiki işin təşkili və bu sahədə beynəlxalq təcrübə ;
4. Azərbaycan Respublikasının "Təhsil Qanunu"
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsi

## Ədəbiyyat:

1.Azərbaycan Respublikasının "Təhsil Qanunu";
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi;
3."İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 77 nömrəli qərarı ilə təsdiq edilmişdir.
4."İlk peşə-ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 29 dekabr tarixli 359 nömrəli qərarı ilə təsdiq edilmişdir.
5."Müəllimlərin etik davranış Qaydaları". Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/2 nömrəli Qərarı ilə təsdiq edilmişdir.
6.İnternet resursları.
7.Q.S.Süleymanov. Dövlət qulluğu vəzifələrinə müsabiqə yolu ilə qəbul. Bakı-2017.

**1."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıda göstərilənlərdən hansılar Azərbaycan Respublikasında elmi adlar müəyyən edilmişdir? Tam və doğru cavabı müəyyən edin.**

1. Fəlsəfə doktoru
2. Elmlər doktoru
3. Dosent
4. Professor
5. Akademik

A) 2, 3, 4, 5
B) 2, 4, 5
C) 1, 2, 3, 4
D) 1, 2
E) 3, 4

**2."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin tanınması hansı qaydada həyata keçirilir?**

A) Qanunvericilik orqanının müəyyən etdiyi qaydada
B) Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada
C) Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının müəyyən etdiyi qaydada
D) Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada
E) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi qaydada

**3. Təhsil sahəsində dövlət standartları hansı dövr üçün hazırlanır?**

A) 2 ildən az olmayaraq
B) 3 ildən az olmayaraq
C) 10 ildən az olmayaraq
D) 5 ildən az olmayaraq
E) 1 tədris ili müddətinə

**4. Müəllimin pedaqoji-peşəkarlıq səviyyəsini və xüsusiyyətlərinin müəyənləşddirilməsi üçün hansı prosesi həyata keçirmək olar?**

A) İş stajı
B) Müvafiq sənədlərinə baxış keçirilməsi
C) Açıq dərsinin dinlənilməsi və müzakirəsi
D) Digər fənlərə olan maraq dairəsi
E) Psixoloji və fizioloji durumu

Nümunə